**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№331/6** **18 iyun 2021-ci il**

**“Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş”in layihəsi barədə**

Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 3.6-cı “Auditor təşkilatlarında effektiv daxili nəzarətin təmin edilməsi” bəndinə müvafiq olaraq hazırlanmış “Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş” təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının rəhbərlərinə tapşırılsın ki:

2.1. Öz fəaliyyətlərində “Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş”in tətbiqini təmin etsinlər;

2.2. Təşkilatın strukturuna, ölçüsünə, fəaliyyətinə və xarakterinə uyğun daxili nəzarət sisteminin təmin edilməsi üzrə siyasətin, qayda və prosedurların hazırlanmasını təmin etsinlər;

2.3. Əməkdaşların işə qəbulu prosedurlarının hazırlanmasını təşkil etsinlər;

2.4. Əməkdaşlarının peşəkar inkişafına nəzarət edilməsinə və hər bir əməkdaşın işinin qiymətləndirilməsinə məsul şəxs təyin etsinlər;

2.5. Daxili nəzarəti həyata keçirən kadrların hazırlanmasını və sertifikatlaşmasını həyata keçirsinlər;

2.6. Təşkilatda Metodik Şuranın yaradılması və onun Əsasnaməsinin hazırlanmasını təmin etsinlər.

3. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, bu metodik göstərişin auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil olunması və cari ilin iyul ayında metodik göstərişə dair auditorlar üçün seminarın keçirilməsi təmin edilsin.

4. Bu metodik göstərişin Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişlərinin peşə ixtisas səviyyələrinin artırılması kurslarında tədris olunması təmin edilsin.

5. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişlərinə tapşırılsın ki, monitorinqi aparılan auditor təşkilatları tərəfindən “Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş”in tələblərinə riayət edilməsinə diqqət yetirsinlər.

6. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu metodik göstərişin auditorlar təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.

7. Auditor Palatasının struktur bölmələrinin rəhbərlərinə (V.Cavadov, E.Behbudova, V.Rəhimov, E.İbrahimov) tapşırılsın ki, auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə müvafiq təşkilati tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

8. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki:

8.1. on gün müddətində bu metodik göstərişin tələblərindən irəli gələn firmadaxili standartların, qayda və təlimatların hazırlanmasına dair təkliflərini Palatanın rəhbərliyinə təqdim etsin;

8.2. bir ay müddətində sərbəst auditorlar tərəfindən daxili nəzarət sisteminin təşkili və həyata keçirilməsinin xüsusiyyətləri nəzərə alınmaqla müvafiq tövsiyələrin hazırlanmasını təmin etsin.

9. Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/3 nömrəli qərarı və "Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat" qüvvədən düşmüş hesab edilsin.

10. Bu qərarın və metodik göstərişin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**